# Azərbaycanın müasir inkişaf strategiyasının müəllifi



***Dövlətimizin başçısı İlham Əliyev 2018-ci ilin aprelin 11-də keçirilən Prezident seçkilərində seçicilərin mütləq əksəriyyətinin- 86,02 faizinin səsini qazandıqdan bir həftə sonra Milli Məclisdə keçirilən andiçmə mərasimində çıxış edərək respublikamıza rəhbərlik etdiyi 2003-cü ildən ötən 15 il ərzində gördüyü işlərin, iqtisadiyyatda, sosial həyatda və digər sahələrdə qazanılan mühüm uğurların əsasında dahi şəxsiyyət Heydər Əliyev yoluna olan inamın dayandığını, eləcə xalqın mütləq əksəriyyətinin seçiminin də məhz bu amillərin şərtləndirdiyini bildirdi.***

> *İlk növbədə, bir daha mənə bu seçkilərdə göstərilən yüksək etimada görə doğma Azərbaycan xalqına dərin təşəkkürümü bildirmək istəyirəm. Mən həmişə Azərbaycan xalqının dəstəyini hiss etmişəm və hiss edirəm. Bu dəstək mənə güc verir. Mən bu dəstəyə arxalanıram və xalqı bir daha əmin etmək istəyirəm ki, bundan sonra da xalqa və Vətənə layaqətlə xidmət edəcəyəm.*
>
> ***Prezident İlham Əliyevin 2018-ci il aprelin 18-də andiçmə mərasimindəki nitqindən***

Beləliklə, 2018-ci ilin aprelin 11-də keçirilən prezident seçkiləri bir daha göstərdi ki, vətəndaşlar cənab İlham Əliyevin sabitliyə, sülhün və firavanlığın möhkəmləndirilməsinə, dövlətçiliyimizin qüdrətlənməsinə yönələn, respublikanın sosial-iqtisadi inkişafına xidmət edən siyasətini dəstəkləyir və ölkə rəhbərinə çox böyük etimad bəsləyir. Bu inam, eyni zamanda, prespektivdə nəzərdə tutulan uğurlu siyasi kursun yenilməzliyindən və alternativsizliyindən xəbər verir.

Yeri gəlmişkən, Milli Məclisdə keçirilən andiçmə mərasimində Prezident İlham Əliyev inkişaf yoluna çıxardığı Azərbaycanın iftixar doğuran yüksəlişinin icmalını verdi və qarşıdakı 7 ildə respublikamızın hədəflərini diqqətə çatdırdı, inkişafın yeni prioritetlərini elan etdi. Proqram xarakterli həmin çıxışında dövlətimizin başçısı Azərbaycanın daha da qüdrətli ölkəyə çevriləcəyini, siyasi-iqtisadi islahatların dərinləşdiriləcəyini xatırlatdı: "Azərbaycanı daha da qüdrətli ölkəyə çevirəcəyik. Hər bir sahə üzrə bizim konkret proqramlarımız, planlarımız var. Həm beynəlxalq məsələlərlə, həm bölgələrimizin möhkəmləndirilməsi, siyasi-iqtisadi islahatların dərinləşməsi, sosial siyasət, ordu quruculuğu ilə bağlı bizim konkret proqramlarımız var".

Dövlətimizin başçısı növbəti prezidentlik fəaliyyətinə başladığı vaxtdan indiyədək Azərbaycanın siyasi, sosial-iqtisadi sahələrində tarixi uğurlar əldə olunub, Vətən müharibəsində parlaq qələbə qazanılıb. İkinci Qarabağ savaşındakı tarixi zəfərimiz dövlət başçımızın qətiyyəti, müdrik siyasəti, ordumuzun güc-qüdrəti və xalq-Prezident-ordu vəhdəti ilə reallaşdırılıb.

Yeri gəlmişkən, Vətən müharibəsi Azərbaycan Prezidenti İlham Əliyevin müdrik və uzaqgörən siyasətçi olmaqla yanaşı, həm də mahir sərkərdəlik bacarığını, çətin, ağır şəraitdə düzgün qərar vermək istedadını bir daha bütün dünyaya nümayiş etdirdi. Dövlətimizin başçısı savaşdan sonra çıxışlarının birində dedi: "Biz döyüş meydanında, siyasi müstəvidə, istənilən formatda gücümüzü, müstəqilliyimizi göstərdik. Bu müharibədə biz nə qədər böyük sınaqlardan çıxdıq, nə qədər böyük təzyiqlərə məruz qaldıq. Amma haqq yolundan dönmədik, daim irəliyə getdik, qələbəyə doğru inamla addımladıq. Çünki mən xalqın dəstəyini hiss edirdim, xalqın inamını görürdüm. Məni heç nə dayandıra bilməzdi. Çünki bilirdim ki, biz haqlıyıq. Biz öz ərazi bütövlüyümüzü bərpa edirik, öz torpaqlarımızı qaytarırıq".

Dövlətimizin başçısı müharibənin davam etdiyi günlərdə xarici ölkələrin nüfuzlu kütləvi informasiya vasitələrinə, telekanallarına verdiyi müsahibələri ilə də respublikamızın haqq səsini dünya ictimaiyyətinə tutarlı arqumentlərlə çatdırdı, həmçinin Azərbaycanın beynəlxalq hüququn tələblərinə uyğun öz torpaqlarında savaş apardığını sübut etməklə ermənipərəst xarici dairələrin döyüşlərin gedişinə müdaxilələrinin qarşısını böyük məharətlə aldı.

İndi dogma, əzəli-əbədi Qarabağ torpağımızda genişmiqyaslı tikinti-quruculuq tədbirləri sürətlə aparılır. İşğaldan azad edilən ərazilərimizdə erməni vandallarının illərlə törətdikləri vəhşi əməllər hər addımda nəzərə çarpır. Viran qoyulan şəhər və kəndlərimiz, dağıdılan, təhqir edilən məscidlərimiz, yer üzündən silinən tarix və mədəniyyət abidələrimiz düşmənin nə qədər barbar, vəhşi olduğunu göstərir.

Azərbaycan Prezidenti son 18 ildə xalqımızı qələbəyə addım-addım yaxınlaşdırmaqla, ordumuzun qüdrətini artırmaqla bərabər, həm də hər bir ölkə vətəndaşının maraqlarını diqqət mərkəzində saxlayıb. Bu müddətdə respublikada hərtərəfli dinamik inkişaf, sabitlik və əmin-amanlıq təmin edilib, beynəlxalq mövqelərimiz daha da möhkəmləndirilib. Prezident İlham Əliyevin yeni iqtisadi modelə keçidlə, iqtisadi və sosial sahədə islahatların aparılacağı ilə bağlı vədləri ardıcıl olaraq yerinə yetirilib. Hər zaman fəaliyyətində xalqın dəstəyinə arxalanan ölkə rəhbəri daim xalq ilə təmasda olub, vətəndaşları narahat edən problemləri birbaşa onların dilindən dinləyib və bu məsələlərin həlli ilə bağlı müvafiq göstərişlər verib. Bütün bunlar, eləcə də dövlətimizin başçısının paytaxtda və bölgələrdə vətəndaşlarla keçirdiyi səmimi görüşlər, onların qayğıları ilə yaxından maraqlanması, insanların sosial rifahının yaxşılaşdırılması istiqamətində verilən qərarlar ölkəmizdə xalq-iqtidar birliyini daha da möhkəmləndirib, xalqın Prezidentinə olan inamını daha da artırıb. Bir sözlə, bütün bu amillər, həm də Prezident və xalq birliyi konsepsiyasının əsas qayəsini təşkil edib.

Dövlət başçısının rəhbərliyi ilə ötən illərdə uğurla reallaşdırılan sosial-iqtisadi islahatların nəticəsi olaraq, respublikamız hazırda qlobal maliyyə, geosiyasi və iqtisadi böhrandan uğurla çıxan, özünəməxsus milli inkişaf modelini yaradan dövlətlərdən biri kimi tanınır, adı beynəlxalq aləmdə sosial-iqtisadi göstəriciləri ildən-ilə yüksələn nüfuzlu ölkə kimi çəkilir.

Prezident İlham Əliyevin sosial-iqtisadi inkişafa göstərdiyi diqqət və qayğı nəticəsində hazırda respublikamızda müasir infrastruktur, istehsal və emal müəssisələri yaradılır, yeni iş yerləri açılır. İlk növbədə, əhalinin sosial rifahının daha da yaxşılaşdırılmasına yönələn bu tədbirlər bir daha təsdiqləyir ki, dövlətimizin başçısının həyata keçirdiyi siyasətin mərkəzində Azərbaycan vətəndaşı dayanır.

Prezident İlham Əliyevin növbəti müddətdə prezidentlik fəaliyyətinə başlamasından ötən dörd il ərzində Azərbaycanın hərtərəfli və dinamik iqtisadi tərəqqisi respublikamızın Cənubi Qafqaz regionunun ən çox inkişaf etmiş ölkəsi statusunda qalmasını şərtləndirdi. Dövlətimizin başçısı bu uğurla vədinə, verdiyi sözə sadiq qaldığını bütün dünyaya nümayiş etdirdi.

Onu da deyək ki, ölkəmizdə belə bir nailiyyət dünya iqtisadiyyatında özünü qabarıq büruzə verən böhran şəraitində əldə olunub. Başqa sözlə, bu, düşünülmüş iqtisadi siyasətin, qeyri-neft sektorunda həyata keçirilən islahatların nəticəsində gerçəkləşdirilib. Bu dövrdə Avropanın enerji xəritəsinə ciddi dəyişikliklər edən Cənub Qaz Dəhlizinin bütün seqmentlərinin inşası yekunlaşdırılıb. Beynəlxalq Dəniz Ticarət Limanı Kompleksinin istifadəyə verilməsi ilə yeni enerji və nəqliyyat-logistika infrastrukturunun formalaşdırılması başa çatdırılıb.

Xatırladaq ki, bu müddətdə peyvəndlənmə prosesinə xüsusi önəm verilməsi və sosial təcrid məhdudiyyətlərinin tədricən yumşaldılması nəticəsində müsbət göstəricilər qazanılıb, ölkədə ümumi daxili məhsul (ÜDM) 5,6 faiz, sənaye istehsalı 5,2 faiz artıb. O cümlədən, artım tempi qeyri-neft sektoru üzrə 7,2 faiz, qeyri-neft sənayesi üzrə 18,9 faiz, kənd təsərrüfatı istehsalında 3,4 faiz təşkil edib. Xarici ticarət dövriyyəsi təxminən, 35,6 milyard ABŞ dollarına çatıb, müsbət ticarət saldosu 12,1 milyard ABŞ dollarını ötüb, 2020-ci illə müqayisədə xarici ticarət dövriyyəsi faktiki qiymətlərlə 46,9 faiz, real ifadədə 5 faiz artıb. İxracın real artımı 17 faiz olub, idxal isə 10 faiz azalıb. Qeyri-neft ixracı 2,7 milyard ABŞ dolları təşkil etməklə, real ifadədə 38,4 faiz yüksəlib.

Bu dövrdə iqtisadiyyatın bütün sahələrində dinamik inkişaf strateji valyuta ehtiyatlarının artımını şərtləndirib. Belə ki, strateji valyuta ehtiyatları 2,5 milyard ABŞ dollarına yaxın artaraq 53 milyard ABŞ dollarını ötüb və xarici birbaşa dövlət borcunu 7 dəfədən çox (7,4) üstələyib. Yeri gəlmişkən, 2021-ci ilin sonuna xarici birbaşa dövlət borcunun məbləği 7,4 milyard ABŞ dolları təşkil edib. Bu, 2020-ci ilin sonu ilə müqayisədə 707 milyon ABŞ dolları və ya 8,7 faiz azalıb. Birbaşa xarici dövlət borcu ÜDM-in 13,5 faizini təşkil edib.

Sonuncu prezident seçkilərindən ötən müddətdə əhalinin sosial durumunun yaxşılaşdırılması da dövlətin sosial siyasətinin prioritet istiqamətlərindən xüsusi yer tutub. Qeyd edək ki, 2019-cu ildə sosial ödənişlər orta hesabla 100 faiz artıb, 2020-ci və 2021-ci illərdə də sosial indeksasiya, təqaüd artımları həyata keçirilib. Pandemiyanın məşğulluğa və rifaha mənfi təsirlərinin qarşısının alınması üçün genişmiqyaslı dəstək proqramları reallaşdırılıb, bu ilin əvvəlindən isə 3,4 milyon şəxsi əhatə edən əməkhaqqı, pensiya və digər sosial ödənişlər artırılıb.

Beləliklə, yalnız son 4 ildə minimum əməkhaqqı 2,3 dəfə, orta aylıq əməkhaqqı 40 faizə yaxın, median əməkhaqqı 74 faiz çoxalıb. Minimum pensiyada 2,2 dəfə, orta pensiyada 65 faiz, müavinət və təqaüdlərdə orta hesabla 2,5-3 dəfə, bəzi istiqamətlərdə 3 dəfədən çox artım gerçəkləşib. Ümumilikdə, 2018-ci ildən sonrakı dövrdə dövlətimizin başçısının imzaladığı fərman və sərəncamlarla ölkə əhalisinin yarısını əhatə edən 3 sosial islahat paket icra olunub və bu paketlərin illik maliyyə dəyəri 6,5 milyard manat təşkil edib.

***Vaqif BAYRAMOV,***
***"Xalq qəzeti"***